# Biz Qarabağ həqiqətlərinin bu cür bədii xronikasını yarada biləcəyikmi?

## Bədirxan Əhmədli: “Bir ölkədə yarım əsrə yaxın davam edən müharibə həqiqətlərini yalnız bu yolla anlatmaq olardı”

**”Sevdiyim əsər” layihəsində yazarların, elm, sənət adamlarının ən çox sevdikləri əsər haqqında söhbət açırıq. Budəfəki həmsöhbətimiz filologiya elmləri doktoru, professor Bədirxan Əhmədlidir. Bədirxan müəllimin sevdiyi əsər Xalid Hüseynin ”Çərpələng uçuran” romanıdır.**

**- Hansı məziyyətlərinə və bədii keyfiyyətlərinə görə Xalid Hüseynin ”Çərpələng uçuran” romanı sizin sevdiyiniz əsərdir?**

- Fərid, öz ədəbiyyatımızdan da müəyyən bir əsəri seçib təhlil edə bilərdik. Ancaq Asiya ədəbiyyatını seçdim, ona görə ki, Asiya xalqlarının ədəbiyyatı hələ lazımi qədər öyrənilməyib, ya da tanış deyilik. İkinci tərəfdən, bu əsəri seçməklə həm də Azərbaycan ədəbiyyatına müəyyən mesajlar vermiş oluruq. Əsərdə məni çəkən məziyyətlər çoxdur, hansı birini deyim... Öncə diqqətimi çəkən məqam, qırx ildir Əfqanıstanda gedən müharibənin anatomiyasını yaratmasıdır. Burada baş verən hadisələrin analoqu yoxdur; ölkə, xalq qırx ildən çoxdur ki, müharibə şəraitində yaşayır. Yazıçı bu müharibənin xarakterini, bədii xronikasını yazır. Bu gün ola bilsin, Əfqanıstanda gedən proseslər yaddan çıxmış olsun, ancaq müəllif bu əsərilə yenidən Əfqanıstan müharibəsini gündəmə gətirir, əfqan ağrılarını bütün dünyaya bəyan edir. Başqa tərəfdən, əsərin bədii məziyyətlərini qeyd etməmək olmaz. Yazıçının nəsr texnologiyası və nağılvari üslubu mürəkkəb əfqan həyatını və burada baş verən ictimai-siyasi, iqtisadi, hərbi, mədəni prosesləri göstərmək üçün ən uğurlu vasitədir. Fikrimcə, əsərin dünya arenasına çıxmağında bu faktorlar əsas rol oynamışdır. Bu əsər üzərində belə geniş dayanmağımın bir səbəbi də otuz ilə yaxın davam edən Qarabağ müharibəsinin yanğılarıdır. Nədənsə, beynimdə həmişə belə bir analogiya aparmalı oluram: biz Qarabağ həqiqətlərinin bu cür bədii xronikasını yarada biləcəyikmi? Bədii düşüncə ilə dünyanın diqqətini Qarabağa yönəltmək mümkündürmü? X.Hüseyni təcrübəsi göstərir ki, mümkündür...

**- Bir çox oxucular hesab edilər ki, əsərdə amerikalılar ”mələk”, ruslar isə ”vəhşi” kimi təsvir olunub. Sizcə, bu, belədir?**

- Mən deməzdim ki, belədir. Yəni yazıçının üslubu nağılvari olsa da, hadisələrin təsvirində reallığı gözləyib. Sovetlərin Əfqanıstanda törətdiyi vəhşiliklər təkcə bu əsərdə göstərilmir ki, onlarla bədii və memuar ədəbiyyatında öz əksini tapıb. Əfqanıstan müharibəsinin iştirakçısı, mərhum yazıçı Zakir Sadatlının ”Əfqanıstan uçurumu” xatirə-romanında da həmin vəhşiliklər təsvir olunur. O ki qaldı Amerikaya, məncə, burada da reallıq gözlənilib. Sovetlərin Əfqanıstanı tərk etməsindən sonra Amerikanın buradakı iştirakı, silah paylaması və s. məsələlərə yer verilib. Əfqan qaçqınlarının çoxu Amerikada sığınacaq tapmışdı. Ancaq onların Amerika haqqında fikirlərində müxtəliflik var. Əmir ağanın atası Babanın Amerikaya olan münasibəti bir qədər fərqlidir. Əgər əvvəllər oğluna ”Əmir, dünyada üç əsl kişi var” və bu kişilərdən birinin Amerika, birinin Britaniya, digərinin isə İsrail olduğunu deyirdisə, 80-ci illərdəki qaçqınlıq dövründə fikri dəyişmişdi. O, Amerikanı xilaskar rolunda görürdüsə, prezident Karteri ”yekədiş, kəmağıl” adlandırırdı. Onun fikrincə, Karter kommunizmə Brejnevdən çox xidmət edib. Amerikanın 1980-ci ildə olimpiadanı boykot etməsini nəzərdə tutaraq ” -Vah, vah! Brejnev əfqanları qırır, bu qozsındıranın da ”sizin hovuzunuzda çimmirəm” deməkdən başqa çarəsi yoxdur”, - deyə etirazını bildirirdi. Xilaskar Amerika, Babanın düşüncəsində Reyqanın simasında gəlib çıxır, televiziyada sovetləri ”Zülm imperiyası” adlandırmasından sonra kral Zahir şahla əl verib görüşdüyü ağ-qara fotosunu başı üstündən asır. Lakin romandan da göründüyü kimi, Sovetlərin oradan çıxmasından sonra həyat yenə axarına düşmür, vətəndaş müharibəsi, terrorlar, aclıq, səfalət davam edir ki, burada Amerikanın rolu heç də az deyil. Bir sözlə, romandakı hadisələr əlli illik bir dövrü əks etdirdiyindən, bu ölkələrə münasibət də hadisələrin xarakterinə uyğun olaraq dəyişir. Ayrıca, Əfqanıstana Sovetlər tankla girmiş, amerikanlar isə humanitar yardımla. Bu da əsərdə özünü göstərməyə bilməz.

**- Bəzilərinin fikrincə, bu əsər Amerikanın sifarişi ilə qələmə alınıb. Siz bu barədə nə düşünürsünüz?**

- Bunu demək çətindir, belə bir sifariş olmuşdurmu? Ancaq görünən odur ki, belə bir sifariş yazıçının özünün və əfqan xalqının mövcud durumundan irəli gəlmişdir. Amerikada mühacir həyatı yaşayan yazıçı, əfqan xalqını düşünmüş, onun düşdüyü bu vəziyyəti, burada baş verən hadisələrin anatomiyasını yaratmaq istəmişdir. Həm yazıçının özünün Amerikada yaşaması, həm də böyük bir qaçqın kütləsinin burada özünə yeni həyat qurmasının özü də yazıçı üçün sifariş ola bilərdi.

**- Adətən, bu kitab üçün ”birnəfəsə oxunan kitab” deyirlər. Bəzilərisə hesab edirlər ki, kitab bu qədər sadə dildə yazılmamalıdır. Əsərin dili barədə fikirləriniz necədir?**

- Məncə, yazıçı əsərin üslubunu və dilini düzgün seçib. Ona görə ki, romanın böyük bir hissəsi Əmir ağanın müşahidələri ilə verilir. Bir ölkədə yarım əsrə yaxın davam edən müharibə həqiqətlərini yalnız bu yolla anlatmaq olardı. ”Nağıl dili yüyürək olar” deyiblər. Yazıçının seçdiyi bu üslub, fikrimcə, demək istədikləri həqiqətləri ifadə etmək üçün uğurludur. Həm də hər bir əsər oxunmaq üçündür. Əgər müəllif tarixi roman janrına aid bir üslub seçsəydi, bəlkə də, bu qədər uğur qazanmayacaqdı. Ancaq X.Hüseyni Əmir ağa ilə Söhrabın uşaqlıq münasibətləri və taleyi üzərindən Əfqanıstan gerçəkliklərini anladır. Eyni dil və üslub müəllifin ”Min möhtəşəm günəş” və ”Və dağlardan səda gəldi...” romanlarında da davam edir. Maraqlıdır ki, yazıçı bu əsərləri də Əfqanıstan gerçəklikləri üzərində qurur. Lakin nə dil, nə üslub, nə də mövzu yaxınlığı bu əsərləri bədii cəhətdən zəiflətmir, bəlkə də, bir-birini tamamlamasına gətirib çıxarır. Bu yolla, bəlkə, yazıçı əfqan həyatına həsr olunmuş bir neçə əsər yaza bilər.

**- Müəllif əsər boyu, sanki müəlliflikdən çıxır və bəzi obrazlara haqq qazandırır. Sonra yenə gözdən itir. Bu cür məqamlar barədə, konkretləşdirərək, siz nə deyə bilərsiniz?**

- Dediyiniz tendensiya X.Hüseyninin digər romanlarında da var, sanki hadisələr arasında bir qırıqlıq yaranır. Müəllif gah görünür, gah da görünməz olur. Ancaq müəllif açıq tendensiya ilə bunu etmir, yalnız hadisələrin alt qatında bunu sezmək olur. Bir qədər diqqətlə baxsaq, bunu yazıçının üslubu kimi yozmaq, məncə, daha doğru olardı.

**- Müəllifin digər romanı olan ”Min möhtəşəm günəş!” bir çox oxucuların, fikrincə, ”Çərpələng uçuran”dan daha obyektiv yazılmış əsərdir. Sizcə, bu qənaətin formalaşması əsaslıdırmı və əsaslıdırsa nəyə görə?**

- Fikrimcə, yazıçı ”Çərpələng uçuran”da deyə bilmədiklərini ”Min möhtəşəm günəş!” romanında demək istəyib. Yazıçının diqqəti hadisələrdən daha çox, insan talelərinə yönəlib. Yazıçı demək istəyir ki, müharibə gedən ölkədə xalqın gənc övladlarının arzuları yarıda qırılır, imkanlarını reallaşdıra bilmirlər, elə ailələr olmur ki, bədbəxtlik meyvəsini dadmamış olsun. Müharibə insanların gələcəyini məhv edir, onların arzularını əllərindən alır. Yazıçı burada müharibə içində müharibəni göstərir. Yazıçı bunu şəxsi azadlıqları əllərindən alınan Məryəm və Leyla obrazları ilə verir. Onlar Rəşidin əsarətindən qurtularaq azadlıqlarına nail olurlar. Müəllif demək istəyir ki, azadlığı ancaq mübarizə və birlik yolu ilə əldə etmək olar. Məryəm azadlığın simvolu olaraq verilir. Nə zamansa əfqan xalqı da bu həqiqəti başa düşəcək və öz azadlığını əldə etməli olacaq. Yazıçı bunu əsərin sonunda belə ifadə edir: ”Biz Kabilin yamyaşıl şəhər olmasını istəyirik”.

**- Əsərdə sizə xüsusi təsir bağışlayan, detal, dialoq və ya məqam hansıdır?**

- Romanda mənə ən çox təsir bağışlayan hissə Kabilin zənginlərinin oranı tərk etməsidir. Görünür ki, burada da vətəni qoruyanlar cəmiyyətin kasıb təbəqələridir. Şəhərin varlılarından olan Baba da Sovetlərin gəlməsi ilə vətəni tərk edir. Bu zaman onların qulluqçuları Əli və oğlu Həsən qırx il xidmət göstərdikləri bu ailədən məhz Əmir ağa ucbatından ayrılmışdılar. Bütün bunlara rəğmən, illər sonra Rəhim xan Həsənə Kabilə qayıtmağı, Əmir ağagilin evində yaşamağı təklif edəndə, buna razılıq verir. Əslində, o, kənddə sakit həyat sürürdü. Kabilə gəlməklə, yenidən talibançıların diqqət mərkəzinə düşür. Evi qorumağa çalışan Həsən talibançılar tərəfindən öldürülür, oğlu Söhrab isə aparılır. Yazıçı bununla həzəraların vətənə, dosta sədaqətini, onun uğrunda ölümə belə getməsini göstərmək istəmişdir. Həsənin ”Səndən ötrü min yol!..” deyimi söz olaraq qalmır, həm də əməllə təsdiq olunur.

**- Əsərin nağılvarı təhkiyəsi sizcə, onun oxunaqlılığına nə qazandırır və müasir nəsr dili üçün bu cür nəqletmə nə qədər maraqlıdır?**

-Çağdaş bədii nəsrin ən böyük problemi oxucu problemidir. Əsərin nağılvari üslubu ilə müəllif bunu həll etmişdir. Ancaq mən düşünmürəm ki, yazıçı bunu əsərin oxunması üçün etmişdir. Hadisələrin ağırlığını, mürəkkəbliyini, ziddiyyətliliyini bəlli bir zaman, müxtəlif məkan kontekstində anlatmanın ən asan yolu kimi bu üslub seçilə bilər. Hər halda, hər üç romanında eyni zaman və məkan kontekstində baş verən hadisələri, insan talelərini bütün reallığı ilə təsvir etməsi mövcud üslubun dinamikliyini göstərir.

**- Romanın süjetinin sondan əvvələ doğru getməsi danışılan hadisələrin xarakterinə, mahiyyətinə nə dərəcədə uyğundur və yazıçıya ideyalarını ifadə etmək üçün hansı imkanları açır?**

- Əsərdə hadisələr sondan əvvələ gedir; Amerikanın San-Fransisko şəhərində yaşayan dörd roman müəllifi (həqiqətən X.Hüseyninin dörd romanı vardır) Əmir ağa uşaqlıq illərini, qulluqçularının oğlu ”dovşandodaq” Həsənlə çərpələng uçurmalarını və Həsənin quşatanla necə dəqiq vurmasını xatırlayır. Onların taleləri də fərqli olur. Uşaq vaxtı hər ikisinin falına baxan falçı, Həsənin taleyində qaranlıq gördüyü üçün üzünə qara kölgə düşmüş, Həsənin rupisini geri qaytarmışdı. Roman boyu bu ehtimal təsdiq edilir. Əsərin ideyası da burada yaranır. Əmir ağanın keçmişinə görə çəkdiyi xəcalətin xronikası və özünü təsdiq etmək yolunda atdığı addımlar təsvir olunur. Əgər hadisələr əvvəldən sona getməsəydi, romanın ideyası da bu şəkildə qoyula bilməzdi. Uşaqlıqda baş verən hadisədən çox illər keçib, ancaq Əmir ağa dostu Həsəni tək qoyduğu günü heç cür unuda bilmir. Bu hadisə həm də romanın psixoloji qatını müəyyən edir. Əmir ağanın indiyədək həyatdan aldığı dərs bundan ibarətdir ki, keçmişi unutmaq, onu gömmək mümkün deyil, keçmiş hər zaman səninlədir. Məhz bu düşüncə ilə Əmir ağa özündə güc taparaq uşaqlıq dostu Həsənin oğlu Söhrabı talibançıların əlindən qurtarır.

**- Əmir Ağa, Həsən onların uşaqlığı - bütün bunlar yəni xatırlanan hadisələrin çoxluğu əsərin hansı qatlarının açılmasına xidmət edir?**

- Məncə, bu təfərrüat romanın əsas ideyasının açılmasına xidmət edir. Əmir ağanın uşaqlığı qulluqçularının oğlu ”dovşandodaq” Həsənlə bir keçir. Həsən onu bir dəfə şəhərin zənginlərindən biri Asifin əlindən qurtarır. Həsən quşatanla dəqiq vururdu. Onlar bir yerdə çərpələng uçurma yarışında qalib gəlirlər. Bir-birinə çox bağlı olurlar. Bir gün onlar fala baxdırırlar. Falçı Həsənin taleyində qaranlıq gördüyü üçün üzünə qara kölgə düşmüş, Həsənin rupisini geri qaytarmışdı. Roman boyu bu ehtimal təsdiq edilir. Maraqlıdır ki, sonda Əmir ağa Həsənin oğlu Söhrabı azad etdiyi kimi, Söhrab da atası kimi Əmir ağanı talibançılara qoşulan Asifin əlindən ikinci dəfə quşatanla xilas edir.

**- Müəllif həzaralar tayfasından da geniş söz açır. Əlavə olaraq əsərdə geniş yer alan bu tayfa haqqında nə deyə bilərsiniz?**

*Davamı səhifə 17-də*



Əvvəli səhifə 16-da

# Biz Qarabağ həqiqətlərinin bu cür bədii xronikasını yarada biləcəyikmi?

## Bədirxan Əhmədli: “Bir ölkədə yarım əsrə yaxın davam edən müharibə həqiqətlərini yalnız bu yolla anlatmaq olardı”

- Həsən obrazı ilə həzəraların son dərəcə zəhmətkeş, namuslu, güclü, qüvvətli, dostluğa sədaqətli, ancaq oxumayan, daha çox ağır işlərdə işləyən, qulluqçuluq edən bir etnos kimi təsvir edir və Əfqanıstanda baş verən etnik təmizləməyə qarşı çıxır. Romanda əvvəldən axıra puştunlar tərəfindən aşağılanan etnik tayfa həzəralara qarşı müəllif simpatiyası aydın hiss olunur. Yazıçı X.Hüseyni romanda verdiyi qeyddə həzəraları xəzərlər, yaxud xəzərlilərlə eyniləşdirir və şiə məzhəbli türksoylu köçəri xalq olduğunu bildirir. Həsənin atası Əlini həzəralara məxsus ”yastıburun” monqoloid üz cizgiləri ilə göstərir. Elmi ədəbiyyatlarda da həzəralar və xəzərlər eyni mənşəli hesab olunur. Həzəralar Əfqanıstanın əsasən mərkəzi dağlıq hissəsində Kabil və Herat arasında (buraya Həzərıstan da deyilir) yaşayan monqol-türk mənşəli xalqlardandır. Romanda təsvir olunan hadisələr zamanı onlara qarşı təzyiqlər güclənmiş, ”Əfqanıstan yalnız puştunlar üçündür!” şüarı səslənmişdir.

**- Asif və Davud bir zamanlar Sovet ordusunun Əfqanıstana girməsinə, sonra isə Sovet ordusunun çıxarılıb ölkənin talibançıların əlinə keçməsinə sevinirlər. Qəribədir deyilmi?**

- X.Hüseyni Asif obrazı ilə yalnız öz şəxsi mənfəətlərini düşünən insanları təsvir etmək istəmişdir. Asif kimi adamların talibançıların başında durması onların iç üzünü açır. Halbuki, Asif elə Davud xanın hakimiyyətdən salınmasına, sovetlərin gəlməsinə də eyni dərəcədə sevinmişdi. Nəticədə, talibançılar ölkədə zorakılıq aktlarını çoxaltdı, bütün azadlıqları məhdudlaşdırdı, insanları cinsi istismara məruz qoydu, din adı altında insanları sorğusuz-sualsız güllələdilər. Onların idarətməsində gerilik, xurafat, zorakılıq başlıca yer tuturdu. Molla rejiminin qurbanları yalnız həzəralar olmur, cəmiyyətin bütün üzvləri onun qoyduğu qanunlardan əziyyət çəkdiyindən, ölkədən baş götürüb gedirdi.

**- Sizcə, müəllif Amerikanın xilaskar imici üzərinə həddən artıq çox fokuslanmayıb?**

- Deməzdim ki, Amerikanın xilaskar obrazına daha çox yer ayrılıb. Olsun ki, Əmir ağanın Amerikada məskunlaşması, Söhrabı talibançılardan azad edib Amerikaya aparması belə bir təsəvvür yaratmış olsun. Ancaq burada Amerikanın əvəzində hər hansı bir ölkə ola bilməzdi. Çünki reallıq budur ki, Amerika 2000-ci illərdən sonra Əfqanıstana bir sabitlik gətirib. Əfqanıstan qaçqınlarının da burada məskunlaşması hadisələrin məntiqindən doğurdu.

**- ”Çərpələng uçurmaq” - bu simvolu müxtəlif cür yozurlar. Siz bu simvolu necə mənalandırırsınız?**

- Çərpələng uçurmaq uşaqlıq dövrünün ən maraqlı hadisələrindən, əyləncələrindən biridir. Bu, uşaqlığın, arzuların simvoludur. Əsərin ideyası da məhz bu hadisə ətrafında cərəyan edir. Məncə, yazıçıya burada simvoldan daha çox, çərpələng uçurmanın funksionallığı lazım olmuşdur.

**- Həzəralar və puştunlar arasındakı kəskin münasibət göz önündədir. Bu münasibətlərin kəskinləşməsindəki ”gizli əl” əsərdə məncə, gərəyincə açılmır. Sizcə, bunun səbəbi nədir?**

- Bəli, əsərdə açıq şəkildə göstərilməsə də, bu gizli əl var. Bunu kim bilməsə də, Azərbaycan xalqı yaxşı bilir. Vaxtilə Qafqazı qarışdıran əl burada da var. Davud xanın hakimiyyətə gəlməsi ilə Əfqanıstanda siyasi hadisələr daxili mübarizə xarakteri almağa başlayır. Kommunistlər bu daxili çəkişməni bir qədər də qızışdırır. Ölkədə faşistyönlü çağırışlar səslənir. Anası alman, atası əfqan olan Asif Əmir ağa ilə söhbətində Davud xanın onlarda qonaq olduğu ilə fəxr edir və ona Hitlerin başladığı işi sona çatdırmasını tövsiyə edəcəyini bildirir. Əmir ağanın yanında həzəra



Həsəni gəzdirməsi Asifi rahatsız edir. O, ”Əfqanıstan puştunların torpağıdır. Həmişə belə olub, həmişə belə olacaq” deyir. Özünü ”əsl əfqan”, ”təmiz əfqan” hesab edən Asif ”Mən deyirəm ki, Əfqanıstan puştunlar üçündür” şüarını səsləndirir və belə hesab edirdi ki, bunun əsas günahı Əmir ağanın atası Baba xandadır. Davud xanın hakimiyyəti zamanı da, talibançılıq adı altında da bunu edirdi.

**- Qəhrəmanın dostunun oğlunu xilas etmək motivini bəzi tənqidçilər süni hesab edirlər, bu barədə siz nə düşünürsünüz?**

- X.Hüseyni Əmir ağanı ziddiyyətli verir; o Həsənlə dost olsa da, Asif ona ”Sən axı ona necə dostum deyə bilərsən?” deyəndə ”O mənim dostum deyil, qulluqçumdur!” fikrini beynindən keçirir. Bəzən də onunla qulluqçu kimi davranırdı. O, Həsən kimi qoçaq deyildi. Həsən onun yolunda hər şeyə hazır olduğu halda, Əmir ağada qarşılıqlı səmimiyyət və cəsarət yox idi. Bir neçə dəfə Həsən üçün Asifə və onun dostlarına cavab verə bilməmişdi. Həmin gecə isə Əmir ağa gizləndiyi yerdən çıxmamış, sadəcə, kənardan tamaşa etmişdi. Ancaq bu hadisə ona həmişə əzab verirdi, bundan əziyyət çəkir, səhvini düzəltmək üçün fürsət gözləyirdi. Ona görə də Rəhim xanın Söhrabı qurtarmaq təklifini eşidərkən, artıq belə bir zamanın gəldiyini yəqin edir və Söhrabın dalınca Kabilə gedir. Əslində, onun Kabilə getməsi real görünür, lakin talibançıların, Asifin əlindən Əmir ağanı Söhrabın quşatanı sayəsində qurtulması o qədər də real görünmür. Amma məntiqidir və əsərin ideyasını tamamlayır.

**Söhbətləşdi: Fərid Hüseyn**